AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR
1 SENTYABR 2024-cü il

# MEDİA SUBYEKTLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN

# YADDAŞ

“Media subyektlərinin nümayəndələri üçün Yaddaş”
Mərkəzi Seçki Komissiyası tərəfindən işlənib hazırlanmışdır.

# YADDAŞ KİTABÇASI

**Bu Yaddaş kitabçası 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə media subyektlərinin istifadəsi üçün nəzərdə tutulmuşdur.**

## Azərbaycan Respublikasının Konstitusiyasından
## Ç I X A R I Ş

**Maddə 1.**

**Hakimiyyətin mənbəyi**

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

**Maddə 2.**

**Xalqın suverenliyi**

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsi ilə həyata keçirir.

**Maddə 47.**

**Fikir və söz azadlığı**

I. Hər kəsin fikir və söz azadlığı vardır.

II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

III. İrqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

**Maddə 50.**

**Məlumat azadlığı**

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

**Maddə 56.**

**Seçki hüququ**

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**"Media haqqında"**
**Azərbaycan Respublikası Qanunundan**
**Ç I X A R I Ş**

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. **kütləvi informasiya** – əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlar;

1.1.2. **media** – kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühiti;

1.1.3. **media subyekti** – əsas fəaliyyət növü kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxs;

1.1.4. **jurnalist** – əmək müqaviləsi ilə media subyektində və ya fərdi olaraq müəllif hüquqları əsasında mülki hüquq müqaviləsi ilə fəaliyyət göstərən, əsas fəaliyyət növü davamlı şəkildə məlumat toplamaq, hazırlamaq, redaktə və istehsal etmək, ötürmək, habelə həmin məlumatlara dair fikir bildirmək (şərh vermək) olan və bu fəaliyyəti gəlir əldə etmək məqsədilə yerinə yetirən şəxs;

1.1.5. **audiovizual media** – televiziya və radio yayımının, o cümlədən sifarişli yayım xidmətinin müxtəlif texniki üsul və vasitələrlə audio və

(və ya) vizual formada istifadəçiyə təqdim edilməsini həyata keçirən media;

1.1.6. **çap mediası** – il ərzində müəyyən dövriliklə planlaşdırılmış vaxtda və ya müvafiq materiallar toplandıqda mətn və ya vizual formada olan kütləvi informasiyanı vahid tərtibata malik kağız və (və ya) elektron daşıyıcıda yayımlayan media;

1.1.7. **onlayn media** – audiovizual media və çap mediası istisna olmaqla, mətn, audio, vizual və ya digər elektron (rəqəmsal) formada olan kütləvi informasiyanı veb-saytda yayımlayan media;

1.1.8. **informasiya agentliyi** – kütləvi informasiyanın əldə olunmasını, ötürülməsini, istehsalını və yayımını həyata keçirən, habelə digər media subyektləri ilə informasiya verilməsi (əldə edilməsi) haqqında müqavilələr bağlayan, əldə etdiyi informasiyanın müntəzəm olaraq həmin müqavilələr üzrə çatdırılmasını təmin edən media;

**Maddə 17. Məlumat almaq hüququ**

17.1. Media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər. Bu hüquq qanunla müəyyənləşdirilmiş hallardan başqa məhdudlaşdırıla bilməz.

17.2. Dövlət orqanları (qurumları), bələdiyyələr, müəssisə və təşkilatlar, qeyri-hökumət təşkilatları, siyasi partiyalar, vəzifəli şəxslər öz fəaliyyətləri haqqında informasiyanı media subyektlərinin və jurnalistlərin yazılı və şifahi sorğusu əsasında, habelə mətbuat konfransları və ya brifinqlər keçirmək yolu ilə yaxud başqa formalarda verirlər.

17.3. İnformasiya əldə edilməsi barədə yazılı sorğuya “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyənləşdirilmiş qaydada və müddətdə baxılır. Həmin Qanunda göstərilən müddətdə həmin informasiya öz operativliyini itirərsə, sorğuya dərhal, bu mümkün olmadıqda isə 24 (iyirmi dörd) saatdan gec olmayaraq cavab verilməlidir.

17.4. Media subyektləri və jurnalistlər məlumatı verməkdən imtina edən dövlət orqanlarından (qurumlarından), bələdiyyələrdən, müəssisə və təşkilatlardan, qeyri-hökumət təşkilatlarından, siyasi partiyalardan və ya vəzifəli şəxslərdən qanunla müəyyənləşdirilmiş qaydada şikayət etmək hüququna malikdir.

Seçkilərdə media subyektlərinin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Seçki Məcəlləsi və digər qanunvericilik aktları ilə tənzimlənir.

**Media subyektləri də daxil olmaqla seçki prosesinin bütün iştirakçıları aşağıdakı şərtlərə riayət etməlidirlər:**

- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan digər media subyektləri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, siyasi partiyaların və siyasi partiyalar bloklarının seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq, onları məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanuna zidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkindirməyə sövq etməmək;*
- *təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək, onlarla əməkdaşlıq etmək;*
- *seçki komissiyalarının fəaliyyətinə əsassız müdaxilə etməmək, səsvermə və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu, böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materialları yaymamaq;*
- *dövlət, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək.*

**Seçki prosesində istifadə edilən bəzi anlayışlar:**

**seçki hüququ** – Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı təşviqatda, seçki komissiyalarının işində, seçkilərin keçirilməsinin müşahidəsində (seçkilərin nəticələrinin müəyyən edilməsi də daxil olmaqla), səsvermədə və digər seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək;

**seçici** – seçki hüququna malik şəxs;

**seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslər** – deputatlığa namizəd, deputatlığa qeydə alınmış namizəd, siyasi partiyalar, siyasi partiyaların bloku, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, yerli və beynəlxalq (xarici) müşahidəçilər, media subyektlərinin nümayəndələri;

**namizəd** – Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmək üçün Seçki Məcəlləsinə uyğun namizədliyi irəli sürülmüş şəxs;

**qeydə alınmış namizəd** – Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmək üçün Seçki Məcəlləsinə uyğun olaraq müvafiq dairə seçki komissiyası tərəfindən qeydə alınmış şəxs;

**siyasi partiyalar bloku** – seçkilərdə birgə iştirak etmək üçün iki və ya daha çox siyasi partiyanın yaratdığı və seçkilər zamanı siyasi partiyalarla eyni hüquqa malik olan blok;

**səlahiyyətli nümayəndə** – Seçki Məcəlləsi ilə nəzərdə tutulan seçki hərəkətlərinin həyata keçirilməsi məqsədilə deputatlığa namizədlər, namizəd irəli sürmüş siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən təyin edilən, seçki komissiyaları qarşısında onları təmsil edən, seçkiqabağı təşviqat da daxil olmaqla, həmin subyektlərin adından hüquqi əhəmiyyətli hərəkətlər edən şəxs;

**vəkil edilmiş şəxs** – deputatlığa qeydə alınmış namizəd, namizədi qeydə alınmış siyasi partiya, siyasi partiyalar bloku tərəfindən təyin edilən, qeydə alınmış namizədin seçilməsi üçün təşviqat aparan və digər bu cür fəaliyyətlə məşğul olan şəxs;

**müşahidə** – məlumatların yığılması və onların qiymətləndirilməsi əsasında ekspert rəyinin hazırlanması;

**müşahidəçi** – seçkilərin keçirilməsi zamanı Mərkəzi seçki Komissiyası (bundan sonra - MSK) və ya dairə seçki komissiyası (bundan sonra - DSK) tərəfindən seçki prosesini müşahidə etmək üçün qeydə alınmış şəxs;

**beynəlxalq müşahidəçi** – seçkiləri müşahidə etmək hüququ almış və xarici dövləti, xarici və ya beynəlxalq təşkilatı təmsil edən şəxs;

**seçici siyahıları** – müvafiq seçki məntəqəsinin ərazisində yaşayan və aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahıları;

**seçkiqabağı təşviqat** – vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştirak etməyə, bu və ya digər namizədin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti;

**təşviqat materialları** – seçki kampaniyası zamanı dərc edilməsi və ya digər üsullarla yayılması nəzərdə tutulan seçkiqabağı təşviqata həsr edilmiş çap, audiovizual və digər materiallar;

**televiziya və radio ilə seçkiqabağı təşviqat** – seçiciləri hər hansı namizədin lehinə səs verməyə (səs verməməyə) təbliğ etmək məqsədilə qanunvericiliklə müəyyən olunmuş formada məlumatların televiziya və radio proqramları vasitəsi ilə yayımlanması;

**dövri nəşrlər vasitəsilə seçkiqabağı təşviqat** – seçiciləri hər hansı namizədin lehinə səs verməyə (səs verməməyə) çağırmaq məqsədilə qanunvericiliklə müəyyən olunmuş formada məlumatların dövri nəşrlər vasitəsilə yayılması;

**media vasitəsi ilə aparılan seçkiqabağı təşviqatın növləri** – çıxış, müsahibə, mətbuat konfransı, açıq müzakirə, debat, “dəyirmi masa”, namizəd haqqında televiziya və radio verilişlərinin, videofilmlərin (bədii filmlər istisna olmaqla) göstərilməsi;

**çıxış** – seçkiqabağı proqram və platformanın televiziya və radio proqramları vasitəsilə seçicilərə açıqlanması;

**müsahibə** – qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin media subyektlərinin nümayəndələri ilə görüşləri zamanı onlara verilən sualların cavablandırılması;

**mətbuat konfransı** – qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyaların bloklarının, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin media vasitəsi ilə suallara cavablar daxil olmaqla, namizədlərin seçkiqabağı proqramının izah edilməsi;

**açıq müzakirə** – seçkiqabağı proqram və platformanın digər subyektlərlə müzakirə edilməsi;

**debat** – iki və ya daha çox qeydə alınmış namizədin, habelə namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının adından onların buna vəkil edilmiş nümayəndələrinin seçkiqabağı proqramları ilə əlaqədar fikir mübadiləsi;

**"dəyirmi masa"** – seçkiqabağı təşviqat tədbirləri çərçivəsində qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının nümayəndələri arasında media subyektlərinin nümayəndələri, televiziya tamaşaçıları, radio dinləyicilərinin sual-cavabları da daxil olmaqla fikir mübadiləsi;

## Seçki prosesinin ictimailəşdirilməsi, seçki subyektlərinin maarifləndirilməsi və bəzi seçki sənədlərinin qüvvəyə minməsində medianın rolu

- Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı, həmçinin bütün qərar və məlumatlar rəsmi dövlət dövri nəşrlərində dərc edilir.
- Qeydə alınmış namizədlər barədə məlumatlar qeydiyyatdan sonra 24 saat müddətində media subyektlərinə təqdim edilir.
- Proqramları Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan ictimai televiziya və radio yayımçıları seçkilərin hazırlanması və keçirilməsi dövründə hər həftə seçki qanunvericiliyini izah etmək, vacib seçki hərəkətlərinin həyata keçirilməsi qaydası və müddətləri, habelə seçki kampaniyasının gedişi haqqında məlumat yaymaq, seçicilərin suallarına cavab vermək üçün MSK-ya 15 dəqiqədən az olmayaraq əvəzsiz efir vaxtı verirlər.
- Təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşən həftədə azı bir dəfə nəşr edilən dövri mətbu nəşrlərin redaksiyaları seçkilərin hazırlanması və keçirilməsi dövründə MSK-ya əvəzsiz olaraq həftəlik nəşr həcminin bir səhifəsindən az olmayan yer ayırırlar.
- Seçki komissiyaları dövri nəşrlərdə ayrılan yerdən seçki qanunvericiliyini izah etmək, seçki hərəkətlərinin qaydası və müddəti, namizədlər, qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları haqqında, həmçinin seçki kampaniyasının gedişi barədə seçicilərin suallarına cavab vermək üçün istifadə edirlər.

**Seçkiqabağı təşviqatın aparılması müddəti**

- ✓ 2024-cü il avqustun 9-da başlanır, avqustun 31-i saat 08:00-da dayandırılır.
- ✓ səsvermə günü və ondan əvvəlki gün seçkiqabağı təşviqat aparıla bilməz – 31 avqust saat 8.00-dan – 1 sentyabr saat 19.00-dək.

## Seçkiqabağı təşviqat prosesində media subyektlərinin fəaliyyəti

1. Seçkiqabağı təşviqat prosesində mülkiyyət növünə və yayım imkanlarına görə iştirakı nəzərdə tutulan televiziya və radio yayımçıları:

*a) Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud azına yayımlanan ictimai televiziya və radio yayımçıları;*

*İctimai televiziya və radio yayımçılarının seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır.*

*Ödənişli əsaslarla ayrılan efir vaxtının ümumi həcmi pulsuz efir vaxtının ümumi həcmindən az və həmin həcmdən iki dəfədən artıq ola bilməz.*

*İctimai televiziya və radio yayımçılarının kanallarında ödənişsiz efir vaxtının bölgüsü MSK tərəfindən keçirilən püşkatmada müəyyən edilir.*

*b) təsisçiləri fiziki və hüquqi şəxslər olan və xüsusi mülkiyyətə əsaslanan televiziya və radio yayımçıları;*

*Özəl televiziya və radio yayımçılarının ayırdıqları efir vaxtının həcmi onların öz mülahizələrinə uyğun olaraq müəyyən edilir. Efir vaxtı müvafiq televiziya və radio yayımçıları tərəfindən keçirilən püşkatmada səlahiyyətli subyektlər arasında bərabər həcmdə bölünür. Püşkatma keçirildikdən sonra efir vaxtı üçün yer bağlanmış müqavilə əsasında təqdim edilir.*

Seçkiqabağı təşviqat üçün ayrılan ödənişli efir vaxtı və ödənişli yer barədə müvafiq televiziya və radio yayımçıları seçkiqabağı təşviqat subyektlərinə, MSK və ya DSK-ya bildiriş göndərir, həmçinin ayrılan efir vaxtının və dərc üçün ayrılmış yerin ödənişinin əsasları, məbləği və şərtləri barədə seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərcindən 30 gündən gec olmayaraq məlumat dərc edir.

***QEYD:*** *"a" bəndində göstərilən ictimai televiziya və radio proqramları yayımçıları tərəfindən seçkiqabağı təşviqat üçün efir vaxtı ödənişsiz və ya ödənişli əsaslarla, "b" bəndində göstərilən televiziya və radio yayımçıları tərəfindən isə yalnız ödənişli əsaslarla efir vaxtı ayırılır.*

**2. Seçkiqabağı təşviqat prosesində mülkiyyət növünə və yayım imkanlarına görə iştirakı nəzərdə tutulan dövri nəşrlər:**

*a) dövlət dövri nəşrləri – təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşdirilən, Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud yarısından az hissəsinə yayılan, həftədə azı bir dəfə çıxan dövri nəşrlər ("Azərbaycan" qəzeti, "Xalq" qəzeti, "Respublika" qəzeti və "Bakinski raboçi" qəzeti);*

*Göstərilən dövri nəşrlərdən hər birində pulsuz ayrılan nəşr səhifələrinin həcmi seçkiqabağı təşviqat dövründə həftəlik nəşr səhifələrinin ümumi həcminin azı 10 faizini təşkil etməlidir.*

*Dövlət dövri nəşrlərində dərc üçün yerin ayrılması ilə bağlı püşkatma müvafiq dövri nəşr redaksiyaları tərəfindən keçirilir.*

*b) özəl dövri nəşrlər – təsisçiləri ayrı-ayrı fiziki və ya hüquqi şəxslər olan dövri nəşrlər;*

*Özəl dövri nəşrlərdə dərc yerinin ayrılması ilə bağlı püşkatma müvafiq dövri nəşr redaksiyaları tərəfindən keçirilir.*

✓ Seçkiqabağı təşviqat üçün dövri nəşrlərdə ayrılan ödənişli yer barədə müvafiq dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat subyektlərinə, MSK və ya DSK-ya bildiriş göndərir, həmçinin ayrılan efir vaxtının və dərc üçün ayrılmış yerin ödənişinin əsasları, məbləği və şərtləri barədə seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərcindən 30 gündən gec olmayaraq məlumat dərc edir.

***QEYD:*** *"a" bəndində göstərilən dövlət dövri nəşrləri tərəfindən yerlərin ayrılması ödənişsiz və ya ödənişli əsaslarla, "b" bəndində göstərilən nəşrlər tərəfindən isə yalnız ödənişli əsaslarla həyata keçirilir.*

**Nəzərə alın ki,**

- *Yuxarıda göstərilən təşkilatlar qeydə alınmış namizədlərin, siyasi partiyaların və siyasi partiyalar bloklarının lehinə və ya əleyhinə öz təşəbbüsləri ilə seçkiqabağı təşviqat apara bilməzlər.*
- *Dövlətə məxsus olan televiziya və radio yayımçıları vasitəsilə seçkiqabağı təşviqat aparılmır.*
- *Siyasi partiyalara məxsus olan dövri nəşrlər qeydə alınmış namizədlərə bərabər şərait yaratmaq öhdəliyi daşımırlar.*
- *Qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkiqabağı tədbirlərinin keçirilməsi haqqında məlumatlar, bir qayda olaraq, televiziya və radio proqramlarında məlumatların şərhsiz göstərildiyi proqramların başlanğıcında verilməlidir. Belə məlumatlara sərf edilən efir vaxtının dəyərini qeydə alınmış namizədlər,*

*namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları ödəmirlər. Bu halda seçkiqabağı təşviqatın işıqlandırılmasında hər hansı bir qeydə alınmış namizədə, namizədi qeydə alınmış siyasi partiyaya, siyasi partiyaların blokuna üstünlük verilməməlidir.*

## Püşkatmaya dair tələblər və bu prosesdə iştirak etmək hüququ olan subyektlər

Seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə ərzində qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları arasında onların verdikləri ərizə əsasında püşkatma keçirilir. İTV tərəfindən ayrılan ödənişsiz efir vaxtının bölgüsü MSK, digər qurumlar tərəfindən ayrılan efir vaxtı və dərc yerinin bölgüsü isə həmin qurumlar tərəfindən həyata keçirilir.

Püşkatmanın keçirilməsi üçün püşkatma komissiyası yaradılır. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında məlumat püşkatmanın keçirilməsinə ən azı 24 saat qalmış rəsmi dərc edilir. Püşkatma komisiyası tərəfindən keçirilən püşkatmanın nəticələri müvafiq qaydada rəsmiləşdirilir.

**YADDA SAXLA!**

*Püşkatmada müvafiq seçki komissiyasının üzvləri, qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, yaxud vəkil edilmiş şəxsləri, yerli və beynəlxalq müşahidəçilər, media subyektlərinin nümayəndələri iştirak edə bilərlər.*

***Seçki Məcəlləsi ilə seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarət***

- *Seçki Məcəlləsi ilə seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti MSK nəzdində yaradılmış və əsasən jurnalistlərdən ibarət olan Mətbuat qrupu həyata keçirir.*
- *Mətbuat qrupu MSK tərəfindən ona verilən səlahiyyət çərçivəsində fəaliyyətinin qanunamüvafiq qurulması məqsədilə mətbuat və informasiya sahəsində idarəetmə və nəzarəti həyata keçirən orqanlarla, media subyektlərinin redaksiyaları ilə, qeydə alınmış namizədlərlə, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları və seçki prosesinin digər iştirakçıları ilə qarşılıqlı şəkildə fəaliyyət göstərə bilər.*
- *Mətbuat qrupu öz iclaslarında media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılmasının müəyyən olunmuş qayda və üsullarına əməl olunmasına nəzarət*

*etmək məqsədilə aşkar edilmiş nöqsanların aradan qaldırılması üçün tədbirlər görür, daxil olmuş müraciətlərə səlahiyyətləri daxilində baxır, zəruri hallarda həmin müraciətlər üzrə təkliflərini MSK-nın müzakirəsinə çıxarır.*

- *Mətbuat qrupuna rəhbərliyi, onun fəaliyyətinin təşkilati və hüquqi təminatını MSK həyata keçirir.*

**DİQQƏT!**

***Aşağıdakı subyektlər seçkiqabağı təşviqat apara bilməzlər:***

*- xarici dövlətlər və xarici hüquqi şəxslər;*

*- xarici vətəndaşlar;*

*- vətəndaşlığı olmayan şəxslər;*

*- 18 yaşına çatmamış vətəndaşlar;*

*- seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxslərinin nizamnamə kapitalında xarici dövlətlərin, xarici hüquqi şəxslərin, xarici vətəndaşların və ya vətəndaşlığı olmayan şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxsləri;*

*- beynəlxalq təşkilatlar və beynəlxalq ictimai hərəkatlar;*

*- dövlət hakimiyyəti orqanları və bələdiyyə qurumları;*

*-dövlət, bələdiyyə təşkilatları və idarələri;*

*- seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslər;*

*-hərbi hissələr;*

*- xeyriyyə təşkilatları, dini birliklər, idarələr, təşkilatlar;*

*- öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslər;*

*- dövlət və bələdiyyə qulluqçuları;*

*- hərbi qulluqçular;*

*- seçki komissiyaları, seçki komissiyasının həlledici səs hüquqlu üzvləri və digər vəzifəli şəxslər;*

*- Dövlətə məxsus olan televiziya və radio yayımçıları vasitəsilə seçkiqabağı təşviqat aparılmır.*

**Seçki günü: 1 sentyabr 2024-cü il**
**səsvermə başlayır: saat 8:00-da**
**səsvermə başa çatır: saat 19:00-da**

## Seçki prosesində aşkarlıq

Seçki prosesinin bütün mərhələləri və seçki hərəkətləri (səsvermə kabinəsidə səsvermə istisna olmaqla) proses iştirakçıları üçün tam aşkar olmalıdır. Səsvermə günü seçki məntəqəsində həyata keçirilən bütün seçki hərəkətlərini, eləcə də seçki komissiyalarının fəaliyyətini aşağıdakı şəxslər müşahidə edə bilərlər:

- → MSK və DSK üzvləri;
- → deputatlığa qeydə alınmış namizədlər;
- → deputatlığa qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri;
- → siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri;
- → seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri;
- → yerli və beynəlxalq müşahidəçilər;
- → media subyektlərinin nümayəndələri;

**Seçki Məcəlləsindən**
**ÇIXARIŞ**

**Maddə 43. Media subyektlərinin nümayəndələri**

43.1.Media subyektlərinin nümayəndələri bütün seçki komissiyalarının iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolları və qərarları ilə tanış ola bilər, habelə müvafiq seçki komissiyasının qərarının, protokolunun və onlara qoşulan digər sənədlərin surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxara və ya ala bilər, əlavə nüsxələri isə Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə ala bilərlər.

### DİQQƏT !

Media subyektlərinin nümayəndələri seçki günü seçki məntəqəsində olarkən müşahidənin aparılması prinsiplərinə (bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə seçki prosesinə təsir göstərilməməsi, müşahidə edilən hərəkətlərə aid olan bütün halların və faktların nəzərə alınması, müşahidənin açıq aparılması, müşahidənin yekunlarının faktlara əsaslanması) mütləq əməl etməlidirlər.

**Media subyektlərinin nümayəndələri aşağıdakı hərəkətləri edə bilməzlər:**

- → seçicilərə seçki bülletenləri vermək;
- → seçicinin barmağında mürəkkəbin olub-olmamasını ultrabənövşəyi lampa vasitəsi ilə yoxlamaq və ya seçicinin barmağını gözə görünməyən mürəkkəblə işarələmək;
- → seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- → köməyə ehtiyacı olan seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması qrafasında imza etmək və seçki bülleteninə işarə qoymaq;
- → seçki komissiyası üzvünün işinə mane olmaq və ya qanunsuz olaraq seçki komissiyasının fəaliyyətinə müdaxilə etmək;
- → seçicinin seçiminə təsir etmək və ya səsvermənin gizliliyini pozmaq;
- → seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə birbaşa seçki bülletenlərini saymaq;
- → seçicilər arasında təşviqat aparmaq;
- → bu və ya digər namizədin, siyasi partiyanın lehinə, yaxud əleyhinə yönələn və ya bu cür qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- → müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- → seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);
- → qanunla yol verilməyən digər hərəkət (hərəkətsizlik) etmək.

**YADDA SAXLA!**

- ✓ *Media subyektlərinin nümayəndələri müşahidəçilərlə eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.*
- ✓ *Media subyektlərinin nümayəndələrindən seçki məntəqəsinə gələcəkləri barədə MnSK-nı qabaqcadan xəbərdar etmələri tələb olunmur.*

**YADDA SAXLA!**

Azərbaycan Respublikasının vətəndaşı kimi media subyekti nümayəndəsinin qanunvericiliklə müəyyənləşdirilmiş qaydada seçkilərdə seçici qismində iştirak etmək hüququ vardır.

Əgər media subyektinin nümayəndəsi xidməti fəaliyyəti ilə əlaqədar səsvermə günü adının seçicilər siyahısında olduğu seçki məntəqəsində səs verə bilmirsə, o, qeydiyyatdan çıxma vəsiqəsi ilə həmin seçki dairəsinin ərazisində yerləşən digər seçki məntəqəsində səs verə bilər.

***QEYD:*** Milli Məclisə seçkilər zamanı qeydiyyatdan çıxma vəsiqəsi yalnız müvafiq seçki dairəsinin ərazisində tətbiq edilir.

Qeydiyyatdan çıxma vəsiqəsi dairə seçki komissiyasından səsvermə gününə **45-25 gün** qalmış, məntəqə seçki komissiyasından isə səsvermə gününə **24-3 gün** qalmış götürülə bilər.

# QEYD ÜÇÜN

